Azərbaycan Respublikası elm və təhsil nazirinin 12.12.2014-cü il tarixli 1256 nömrəli əmri ilə təsdiq edilmiş “Məktəblilərin fənn olimpiadalarının təşkili və keçirilməsi Qaydaları”nın 2.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 5.5.10-cu bəndini rəhbər tutaraq **əmr edirəm:**

1. Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri, Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor səlahiyyətlərini müvəqqəti icra edən (Elnur Əliyev) və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru (Eşqi Bağırov) 2023/2024-cü tədris ili üzrə respublika fənn olimpiadalarının yüksək səviyyədə təşkili məqsədilə müvafiq tədbirləri həyata keçirsinlər.

2. İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi (S.Rzayev) əmrin Elm və Təhsil Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini və Kütləvi İnformasiya Vasitələrində işıqlandırılmasını təmin etsin.

3. Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsi (R.Xanlarov) əmrin çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: Nazir müavini Firudin Qurbanovun 07.12.2023-cü il tarixli, 3-29-02-5167 qeydiyyat nömrəli təqdimatı.

***Emin ƏMRULLAYEV,***
***Azərbaycan Respublikasının elm və təhsil naziri***
***5 mart 2024-cü il***
***3-29/3-2-122F/2024***